# İSTEDAD HAQQINDA BƏZİ MÜLAHİZƏLƏR

**S.M.Hacıyeva**
ADPU-nun "Musiqi və onun tədrisi texnologiyası" kafedrasının baş müəllimi



Müasir və sürətlə dəyişən dünyamızda gənclərin çevik düşüncəyə malik olmaları, yeni şəraitə tez bir zamanda uyğunlaşmaq bacarığının əldə edilməsi çox vacib amildir. Həmin bacarıqlara isə birdən-birə nail olmaq mümkün deyil. Bunları təhsil sistemimizin bütün pillələrində (bağçalardan başlayaraq ali məktəblərə qədər) həyata keçirmək lazımdır. Bunun üçün təhsil sistemi elə qurulmalıdır ki, o yaradıcı-kreativ olsun, istedadlı insanların yetişdirilməsinə xidmət göstərsin.

Biz çox tez-tez qeyd edirik ki, filankəs istedadlı alimdir, yaxud istedadlı şagirddir, tələbədir və s. Əlbəttə, bu sözlər müəyyən sahədə başqalarına nisbətən daha yüksək qabiliyyətə, bacarığa və biliyə malik adamlar barəsində deyilir. Bir çox hallarda istedadın anadangəlmə təkanverici olması barədə fikir söylənilir. Təsadüfi deyildir ki, istedad mənasında işlənilən latın sözü "talant" Qədim Romada qızılın ölcu vahidi olub.

Beləliklə, sual olunur: "İstedad bilikdir, yoxsa anadangəlmə vergidir?"

Bu sualı araşdırmazdan əvvəl deyək ki, istedadı yalnız anadangəlmə vergi hesab etmək doğru olmazdı. Düzgün qurulan təlim-tərbiyə nəticəsində onu üzə çıxarmaq və inkişaf etdirmək mümkündür.

Qeyd etmək lazımdır ki, insanda istedad nəzərə çarpan bir cəhət kimi, yalnız müəyyən bilik özülündə meydana çıxır. Mukəmməl musiqi hazırlığı olmayan bəstəkar istedadlı bəstəkar ola bilərmi? Yaxud insan orqanizminin quruluşunu mükəmməl öyrənməyən adam talantlı həkim ola bilərmi? Əlbəttə ki, yox! Buna görə də bilikləri mənimsəmə, öyrənmə mərhələsində istedad barədə düşünmək o qədər də doğru deyildir.

Lakin bunula yanaşı qeyd etmək lazımdır ki, bilikli olmaq hələ istedadlı olmaq deyildir. Məsələn, dodekafoniya üslubunu mükəmməl bilən hər bir musiqiçi bu üslubda əsər yarada bilməz. Burada xüsusi istedad da lazımdır. Bilmək azdır, həm də bacarmaq lazımdır.

Deməli istedad uçun bilik zəruridir, lakin yetərli deyildir.

İstedadın əsasında təfəkkür və bilik durur. Psixoloqlar insan təfəkkürünü iki növə ayırırlar: reproduktitv (və ya konvergent) təfəkkür və produktiv (və ya divergent) təfəkkür. Elə şağird, tələbə var ki, yalnız eyni tipli misalları həll edə bilir. Yəni nümunələr əsasında oxşar çalışmaların öhdəsindən ğəldiyi halda, nümunəyə oxşamayan calışmaları həll edə bilmir. Belə təfəkkür tipi reproduktiv adlanır. Elə şağird də var ki, aldığı biliklərin ona tanış olmayan situasiyalarda tətbiqini bacarır. Belə təfəkkür tipi produktiv adlanır.

İstedadın psixoloji əsasında məhz produktiv (yəni divergent, yaradıcı) təfəkkür durur. Bu baxımdan biliyin mənimsənilməsi 2 mərhələyə ayrılır: analiz və sintez biliyi.

Bilik mənbələrinin mütaliə olunub analitik şəkildə yadda saxlanılması analiz biliyini və reproduktiv təfəkkürün əsasını təşkil edir. Bu zaman alınan material məhlul edilərək qavranılır və oldugu kimi qəbul edilib, yaddaşda həkk olunur.

Sintez biliyi isə tədqiqat nəticəsində qazanılan bilikdir və produktiv təfəkkürün əsasında durur. Burada insan əvvəldən qazandığı analitik biliyə əsaslanaraq, hadisələri araşdırmaqla yeni nailiyyətlər, kəşflər əldə edir. Göründüyü kimi, sintez biliyi analiz biliyinə dayaqlanaraq, onun müəyyən təkmilləşdirmə mərhələsində meydana cıxa bilir.

Sintez biliyinin özünü də iki hissəyə ayırmaq olar: xüsusi sintez biliyi və ümumi sintez biliyi. Təbiət və cəmiyyət elmlərinin ayrı-ayrı sahələri üzrə əldə edilən kəşflər xüsusi sintez biliklərinə aiddir. Məsələn, riyaziyyat, fizika, kimya kimi dəqiq və təbiət elmlərində aşkara çıxarılan ayrı-ayrı tapıntılar bu qəbildəndir.

Ümumi sintez biliyi dünyanın anlaşılması, ümumdünyəvi təbiət və cəmiyyət inkişafının qanunauyğunluqları və onların qarşılıqlı əlaqələrinin dərki üzrə biliklər məcmusudur ki, bunlar elmi ədəbiyyatda çox vaxt "idrak" (ərəbcədən tərcüməsi: "dərketmə") adlanır. Dünyanın dərkində ayrı-ayrı elmlərin təklikdə öyrənilməsi kifayət deyildir və produktiv təfəkkürün əldə edilməsi üçün müəyyən elmlər kompleksinin öyrənilməsində fəlsəfə və məntiq vasitəsilə üzvi surətdə əlaqələndirilməsi zəruridir.

Orta məktəb və ənənəvi ali məktəb təhsili analiz biliyindən ibarətdir ki, öyrənənlərdə yalnız birinci növ təfəkkürü inlişaf etdirir (reproduktiv). Belə təfəkkür növü çox zəruri olsa da, istedadın inkişafına xidmət etmir, daha doğrusu qismən xidmət edir. Biz qismən deyirik, çünki yuxarıda qeyd etdiyimiz kimi, yaradıcı (sintez, produktiv) təfəkkür məhz analiz biliklərin üzərində ortaya çıxa bilər. Analiz biliklər olmasa, sintez etməyə də bir şey qalmaz. Məsələn, ədəbiyyat üzrə sərbəst inşa yazıldıqda şagird öyrəndikləri məlum şeyləri deyil, öz şəxsi mülahizələrini irəli sürməlidir, yəni analitik bilikləri sintezləşdirib yeni bir məhsul ortaya çıxarmalıdır. Təəssüflə qeyd etməliyik ki, sərbəst adlanan inşa mövzuları əksər hallarda sintez biliyinin əldə olunmasına xidmət etmir. Məktəb təcrübəsindən görürük ki, hətta ən vacib olan "Azərbaycan mənim vətənimdir" mövzusu da reproduktiv, analitik təfəkkür üzərində qurulur, yəni burada trafaret cümlələr istifadə olunur və inşadan inşaya

köçürülür. Bu isə şagirdlərin istedadlarının üzə çıxmasına mane olur.

Ali məktəblərdə də vəziyyət təxminən eynidir. Burada da analiz biliyi üstünlük təşkil edir. Bunu biz ali məktəblərdə sərbəst və kurs işlərin hazırlanmasında müşahidə edirik: köçürmələr və şablon cümlələr, trafaret təq-dimatlar...

Kurs və ya sərbəst işin məqsədi nədir? Bəlkə də bir çox müəllim və tələbələr bunu axıradək anlamır. Məqsəd isə çox sadə və eyni zamanda vacibdir: tələbənin sintez biliyinin əldə olunması, onda produktiv-yaradıcı təfəkkürün oyanması və inkişafı, tədqiqatçılıq qabiliyyətlərin formalaşdırılması! Yenə də təəssüflə qeyd etməliyik ki, tələbələrə təqdim edilən kurs və sərbəst işlərinin mövzuları bu ali məqsədə xidmət etmir, olsa-olsa onların köçürmə qabiliyyətlərini təkmilləşdirir. Halbuki tələbənin mühazirələrdən qazandığı analitik bilik və yaddaş kurs və sərbəst işlərdə özünün sintez bəhrəsini verməlidir. Bəhrə verməyən bilik isə beyin yükündən və səmərəsiz əziyyətdən başqa bir şey deyildir.

Tələbələrə təklif edilən kurs işlərinin mövzuları da elə seçilməlidir ki, onlar dediyimiz məqsədə qulluq etsin. Məsələn, musiqi tarixi sahəsində tələbələrə kurs işi kimi belə bir mövzu verilə bilər: "Q.Qarayevin "Yeddi gözəl" baletinin ədəbi əsası və onun musiqi versiyasının (librettosunun) yaranma tarixi". Tələbə belə mövzu ilə üzləşəndə birinci növbədə Nizami Gəncəvinin "Xəmsə"si ilə tanış olmalıdır. Bundan əlavə, İ.Hidayətzadənin, V.Slonimski və Sabit Rəhmanın birgə yazdıqları baletin librettosunun yaranması prosesində məktublaşmaları və müzakirələri ilə tanış olmalıdır və s. Həmin iş prosesi tələbələrin idraki fəallığını artırmaqla yanaşı, həm də onların yaradıcılıq təxəyyülünün (fantaziyasının) inkişafına təkan verir.

Kurs işi ilə əlaqəli xatirimə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət konser-vatoriyasında öz tələbəlik illərim gəldi. O zaman bizim "Azərbaycan musiqi mədəniyyəti" fənnindən müəllimimiz görkəmli musiqişünas Aida Tağızadə idi. O, mənə F.Əmirovun "Nizami" simfoniyasının təhlilini kurs işi kimi tapşırmışdı. Üç dəfə kurs işimi müəllimimə təqdim etdim və hər üçünü Aida xanım cırıb tulladı. Dedi ki, bunların hammısı məlum olan, kitablarda yazılan məlumatlardır, sən öz fikirlərini yaz. Mən də sonda gedib simfoniyanın valını qoyub musiqini dinlədim və dinlədikcə hansı hissləri keçirdiyimi, bəstəkarın bizə nə demək istədiyini təhlil edib yazdım - öz cümlələrimlə və tamamən öz düşündüyümü... Bu işi Aida xanım məndən belə sözlərlə qəbul etdi: "Bax, bu başqa məsələ, mən bunu istəyirdim!"

Doğrudur, son zamanlar ali təhsildə nəzərəçarpacaq dəyişikliklər baş verir. Lakin bunlar hələ də ləng gedir və kifayət deyil. Bunun həm subyektiv, həm də obyektiv səbəbləri vardır. Ən başlıcası qiymətləndirmə meyarlarıdır.

Məlumdur ki, yeni təhsil sistemnə görə tələbə semestr ərzində 5-10 sərbəst (müstəqil) iş təhvil verməlidir və hər bir iş yalnız 1-2 balla qiymətləndirilir. Buna görə onsuz da yüklənmiş proqramlarla təhsil alan müasir tələbələr 1-2 bal üçün böyük tədqiqat işi aparmaq istəmirlər, çünki bu həm zaman, həm də güc aparan işlərdir. Müasir elm o qədər irəliyə getmişdir ki, 20-30 il bundan əvvəlki tələ¬bələrin yükü, bugünkü tələbələrin yükü ilə heç müqayisə oluna bilməz. Zənnimizcə, tələbələri əsl tədqiqat işi aparmağa, yaradıcılıqla məşqul olmağa sövq etmək üçün yalnız bir sərbəst iş (həcmli olmaq şərtilə) verilməlidir, lakin onun müdafiəsi çox ciddi şəkildə aparılmalı, orada şablonlardan və plagiatlardan istifadə edilməməlidir. Və bu sərbəst iş 10 bal ilə qiymətləndirilməlidir. Həmin yanaşma kurs işinə də aiddir. Kurs işi maksimum 10 bal ilə qiymətləndirilsə də, bu qiymət cari qiymətləndirmə kimi düstur vasitəsilə bölünür və nəticədə yalnız 2-3 bal ortada qalır. Kurs işini də "təmiz" (yəni düstursuz, bölgüsüz) 10 balla qiymət¬ləndirmək məqsədəuyğun olardı. Bu zaman biz öyrənənləri produktiv təfəkkürə yönəldər, istedadlarının aşkara çıxmasına yardım etmiş olarıq.

İncəsənət sahəsində təhsil alanlar üçün bu sərbəst işlərin təhvili müsa-biqələrdə, sərgilərdə və ya konsertlərdə çıxışlar formasında da ola bilər. Məlumdur ki, bütün bu yaradıcı tədbirlərdə çıxışlar tələbənin həm fiziki güçünü, həm də vaxtını aparır. Bunları qiymətləndirməmək nə qədər doğrudur? Axı bir rəsm əsərini sərgiyə və ya musiqi nömrəsini müsabiqəyə hazırlamaq üçün tələbə həftələr və aylarla, bəzən də illərlə zəhmət çəkir!

Beləliklə, gördüyümüz kimi, qiymətləndirmə mexanizmləri hər sənətin spesifikasını nəzərə alaraq, daha səmərəli işlənib hazırlanmalıdır. Onlar formal şəkildə qurulmamalı, lakin tələbənin yaradıcı qabiliyyətlərinin inkişafına, produktiv təfəkkürünün folmalaşmasına və nəticədə istedadın üzə çıxarılmasına qulluq etməlidir. ❖

**Ədəbiyyat:**

1. Muradzadə A.A. Tələbələrdə yaradıcı təxəyyülün inkişaf xüsusiyyətləri. Bakı, 2006, 144 s.
2. Məmmədov İ.Ə. Yaradıcılıq psixologiyası. Bakı: ADPU, 2000, 100 s.
3. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. B.: "Mütərcim", 2010, 516 s.

**Резюме**

С.М. Гаджиева

НЕКОТОРЫЕ РАССУЖДЕНИЯ О ТАЛАНТЕ

В статье рассматривается сущность таланта, пути его развития у школьников и студентов, обосновывается его связь с репродуктивным и продуктивным мышлением, с развитием творческого типа (дивергентного) мышления, выдвигаются предложения по улучшению в системе образования механизмов оценки творческих самостоятельных и курсовых работ.

**Ключевые слова:** репродуктивное мышление, продуктивное мышление, дивергентное мышление

**Summary**

S.M. Hadjiyeva

SOME REASONING ABOUT THE TALENT

The article discusses the essence of the talent, examines the ways of its development among schoolchildren and students, substantiates its connection with reproductive and productive thinking, with the development of a creative type of (divergent) thinking, puts forward suggestions for improving the mechanisms for assessing creative independent and term papers in the educational system.

**Key words:** reproductive thinking, productive thinking, divergent thinking